

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 191 (21.343)

2 oktyabr 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də İsrail Dövlətinin sabiq Prezidenti Şimon Peresi qəbul edib.

Görüşdə Prezident İlham Əliyev ilə Şimon Peresin bundan əvvəl Bakıda və Davosda keçirilən görüşləri məmnunluqla xatırlanıb.

İsrail Dövlətinin sabiq Prezidenti ölkəmizə budəfəki səfəri zamanı paytaxt Bakıda böyük inkişaf proseslərinin şahidi olduğunu deyib.

Söhbət zamanı Azərbaycan ilə İsrail arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Rusiya Federasiyası Sankt-Peterburq şəhərinin qubernatoru Georgi Poltavçenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

2015-ci ilin sentyabr ayı ərzində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir.

Belə ki, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən yeni alınan, lizinqə götürülən və lizinq yolu ilə satılan texnikaya güzəştlərin tətbiq edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 2 sentyabr tarixli 77 nömrəli qərarında dəyişikliklər edilməsi ilə əlaqədar 2015-ci il may ayının 1-dən fiziki və hüquqi şəxslər tərəfindən "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətindən lizinqə götürülən və lizinq yolu ilə satın alınan "suvarma sistemləri dəstinin və avadanlığının" ilkin dəyərinin ən azı 20 faizi ödənildiyi təqdirdə, dövlət büdcəsinin vəsaiti hesabına onların dəyərinə 40 faiz həcmində güzəşt tətbiq edilir.

Qəbul edilən normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestri vasitəsilə *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq olar.

## Beynəlxalq Ahıllar Günü münasibətilə tədbirlər keçirilib

*Oktyabrın 1-də Beynəlxalq Ahıllar Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Şahbuz şəhərindəki Ahıllar evində tədbir keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək bildirib ki, muxtar respublikanın bütün sahələrində müşahidə olunan dinamik inkişaf və tərəqqi xüsusi qayğıya ehtiyacı olan şəxslərin, o cümlədən ahılların sosial müdafiəsinin davamlı gücləndirilməsinə şərait yaradıb. Ahıl vətəndaşlara, o cümlədən tək yaşayan və hərəkət qabiliyyəti məhdud ahıllara davamlı olaraq evlərində və Ahıllar evində sosial xidmətlər göstərilir. Onların sağlamlığının qorunmasına, sosial reabilitasiyasına xüsusi diqqət yetirilir.

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev çıxışında qeyd edib ki, Şahbuz rayonunda yaşayan ahılların güzəranının yaxşılaşması, onların sağlam həyat tərzində yaşamasının təmin edilməsi daim diqqət mərkəzində saxlanılır və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Ahıllar evinin sakinləri üçün hərtərəfli şərait yaradılıb. Onlara mütəmadi tibbi və sosial reabilitasiya xidmətləri göstərilir.

Tədbirin bədii hissəsində sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu sakinlər qarşısında konsert proqramı ilə çıxış edib.

Sonda sakinlərə hədiyyələr təqdim olunub.

Qeyd edək ki, 1 oktyabr Beynəlxalq Ahıllar Günü münasibətilə Naxçıvan şəhərində və muxtar respublikamızın rayonlarında əhalinin sosial müdafiəsi mərkəzləri tərəfindən ahıl vətəndaşların iştirakı ilə tədbirlər keçirilib. Tədbirlərdə, ümumilikdə, 492 ahıla bayram sovqatı təqdim olunub.

Ahıllar göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamının icrası ilə bağlı müvafiq nazirliklərdə, komitələrdə və təşkilatlarda tədbirlər planı hazırlanıb. Həmin tədbirlər planı çərçivəsində ali təhsil ocaqlarında, o cümlədən Naxçıvan Dövlət Universitetində (NDU) tələbələrlə görüşlər keçirilir.*

## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüşlər davam etdirilir



Bu çərçivədə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi əməkdaşlarının NDU-nun Turizm və otelçilik ixtisası üzrə təhsil alan tələbələri ilə görüşü keçirilib.

Görüş zamanı nazirliyin Turizm şöbəsinin müdiri Gülbuta Babayeva sərəncamdan irəli gələn vəzifələri nəzərə çatdırıb. Şöbə müdiri qeyd edib ki, ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi bilikli və təcrübəli gənc kadrların hazırlanmasına böyük imkanlar yaradacaqdır.

Muxtar respublikanın turizm potensialı haqqında tələbələrə məlumat verən Gülbuta Babayeva çoxsaylı maddi-mədəniyyət nümunələrinin mövcud olduğu qədim Naxçıvanın turizm baxımından cəlbedici regiona çevrildiyini bildirib. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının əlverişli coğrafi mövqedə yerləşməsi, Türkiyə və İranla həmsərhəd olması da burada turizmin inkişafına şərait yaradan amillərdəndir.

Tədbirdə universitetin Sosial idarəetmə və hüquq fakültəsinin dekanı, dosent Qərib Allahverdiyev, Bələdiyyə və turizm kafedrasının müdiri, dosent Hafiz Hüseynov çıxış edərək sərəncamın çox böyük tarixi əhəmiyyəti olduğunu bildiriblər.

Görüş zamanı muxtar respublikada turizmin inkişafı ilə bağlı slaydlar nümayiş etdirilib, turizm haqqında tələbələrin fikirləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

Növbəti görüş isə NDU-nun Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin yenicə yaradılmış Torpaqşünaslıq və aqrokimya, habelə Coğrafiya müəllimliyi, Biologiya müəllimliyi ixtisaslarının I kurs, Ekologiya ixtisasının isə III kurs tələbələri ilə keçirilib. Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə universitetin elmi işlər üzrə prorektoru, fizika üzrə fəlsəfə doktoru, dosent Mübariz Nuriyev "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamın muxtar respublikada kadr potensialının formalaşması, yüksək intellektli mütəxəssislərin hazırlanması və gələcəkdə iş yerləri ilə təmin olunması baxımından əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri Müslüm Cabbarzadə 2015-ci il 27 iyul tarixli Sərəncamın muxtar respublikada fəaliyyət göstərən təşkilatlarla ali təhsil müəssisələri arasında əməkdaşlığın inkişafı, tələbələrə təcrübi biliklərin öyrədilməsi baxımından zəruriliyini vurğulayıb.

Müslüm Cabbarzadə qeyd edib ki, komitənin bu məqsədlə hazırladığı tədbirlər planında tələbələrə dərs vəsaitlərinin, elektron nəşrlərin və əyani vəsaitlərin hədiyyə olunması, virtual dərslərin, istehsalat bazasında təcrübələrin təşkili nəzərdə tutulur.

Sonra tələbələr Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi sədrinin "Ümummilli lider Heydər Əliyevin torpaq islahatı və aqrar sektorun inkişafı" mövzusunda mühazirəsini dinləyiblər.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

Tələbələrə dərsliklər və monoqrafiyalar, xəritələr, elektron nəşrlər hədiyyə edilib.

## Əməyin mühafizəsi diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən tikinti və istehsal müəssisələrində işçilərin əmək şəraitinin, habelə iş yerlərinin əməyin mühafizəsi qaydalarına uyğun olması, işəgötürənlər tərəfindən işçilərin fərdi mühafizə vasitələri və xüsusi geyimlə təmin edilməsi, işçilərin hüquqlarının qorunması məqsədilə qanunvericiliyə uyğun olaraq əmək müqavilələrinin bağlanması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, cari ilin ilk 9 ayı ərzində işçilər üçün müvafiq əmək şəraitinin yaradılması, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət edilməsi ilə əlaqədar 81 müəssisə və tikinti sahəsində nəzarət həyata keçirilmiş, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 76 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılmış, 133 işçi isə həmin vasitələrlə yerində təmin olunmuşdur. Əməyin mühafizəsi qaydalarının pozulmasına görə 3 işəgötürən inzibati məsuliyyətə cəlb olunaraq, ümumilikdə, 3200 manat məbləğində cərimə olunmuşdur. İşçi heyət üçün sağlam və təhlükəsiz əməyin mühafizəsi şəraitinin təmin edilməməsi səbəbindən 1 işəgötürən barəsində isə inzibati xəta haqqında protokol tərtib edilərək inzibati xəta haqqında işə baxılması oktyabr ayına təyin edilmişdir.

2015-ci ilin ilk 9 ayı ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birlikdə tikinti aparılacaq meydançalarda müvəqqəti qurğuların qurulması və normal əmək şəraitinin yaradılmasına nəzarət məqsədilə, ümumilikdə, 32 tikinti sahəsinə baxış keçirilmiş və müvafiq akt tərtib olunaraq həmin tikinti sahələrində inşaat işlərinə başlanmasına razılıq verilmişdir.

Qeyd olunan dövrdə işəgötürən şəxslərlə əmək müqavilələrinin bağlanması və əməkhaqlarının real göstərilməsi nəzarət məqsədilə 414 sahibkarlıq obyektinə baxış keçirilmiş, 278 işçi ilə yeni əmək müqaviləsinin bağlanmasına və 981 halda isə əmək müqaviləsində əməkhaqqının real göstərilməsinə nail olunmuşdur.

"İstehsalatda baş vermiş bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar olaraq Dövlət Baş Sığorta Agentliyinin nümayəndələri ilə birlikdə müvafiq sahibkarlıq subyektlərində araşdırmalar aparılmış və 280 müəssisədə işçilərin icbari sığorta olunmalarına dair müqavilənin bağlanmasına nail olunmuşdur.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Əməyin mühafizəsi və texniki təhlükəsizlik norma, qayda və standartlarına əməl olunması" və "Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələblərinə əməl olunması" mövzularında maarifləndirici kurslar təşkil olunmuşdur. Kurslara muxtar respublikada fəaliyyət göstərən 76 müəssisədən 83 nümayəndə cəlb edilmişdir.

Kurslarda Dövlət Əmək Müfəttişliyi Xidmətinin nümayəndələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Səhiyyə Nazirliyinin, Dövlət Baş Sığorta Agentliyinin, Həmkarlar İttifaqları Şurasının və Dövlət Miqrasiya Xidmətinin nümayəndələri tərəfindən mövzular tədris olunmuşdur.

İstehsalat xüsusiyyətləri nəzərə alınmaqla müəssisələrdə əməyin mühafizəsi mütəxəssislərinin biliklərinin və peşəkarlıq səviyyələrinin artırılması məqsədilə seminarlar keçirilmiş, seminar iştirakçılarına əməyin mühafizəsinə dair bukletlər təqdim edilmiş, habelə əməyin mühafizəsi sahəsinə dair müxtəlif videoçarxlar hazırlanaraq Naxçıvan Dövlət Televiziyasında nümayiş etdirilmişdir.

**Xəbərlər şöbəsi**

# Naxçıvan mədəniyyət və turizm mərkəzidir



**Tarix boyu sivilizasiyaların bir-birinə qarşı rəqabətinin nəticəsi özünün mədəni inkişaf göstəriciləri olan maddi və qeyri-maddi mədəniyyət nümunələrində dövrümüzə qədər gəlib çatmışdır. Elminə dərin hörmət etdiyimiz tarixçilərimizə istinadən deyə bilərik ki, minillər boyu bəşəriyyəti tərəqqiyə aparan güc yalnız yüksək mədəniyyətə qovuşmaq üçün çəkilən zəhmət, yaradıcılıq və axtarışlarla keçən insan ömrü olmuşdur. Məhz bu insanlar hər cür əziyyətə qatlaşaraq illər boyu daşı daş üstə qoymuş, gördüyü hər işdə elm axtarmış, bəzən də tarixin ədalətsizliklərinə sinə gərib səbirlə yoluna davam etmişlər.**

Qədim Azərbaycan tarixinin hər səhifəsində öz izlərini qoruyub saxlamış Naxçıvan da dünya mədəniyyətinə elə bir miras qazandırmışdır ki, onun təbliği üçün indi qarşımızda çox əlverişli fürsətlər yaranmışdır. Düzdür, ölkəmizin və muxtar respublikamızın hərtərəfli inkişafına qısqanclıqla yanaşıb ona yaraşmayan don geydirmək istəyən qüvvələr olsa da, ancaq sayı getdikcə çoxalan dostlarımız sayəsində indi təkcə Naxçıvanımız haqqında bir turist deyil, səmimi bir qonaq kimi ürəkdolusu danışan səyahətçilərin sayı minlərlə, on minlərlədir. Turizmin də mədəniyyətlərarası bir körpü, həm də çox etibarlı bir dialoq vasitəsi olduğuna inandığımız üçün bu təəssüratların gələcəkdə daha geniş və böyük təsiretmə gücünə malik olacağına da şübhəmiz yoxdur. Naxçıvan elə yerdir ki, ona yaradıcı gözlə baxmaq, onun haqqında yazmaq, ürəkdən gələn fikir söyləmək başqasının kəlmələrini köçürməyi özünə vərdiş etmiş üç-beş nəfərdən başqa heç kim üçün çətin iş deyil.

### *Mədəniyyət və turizm*

Mədəniyyətin cəmiyyəti formalaşdırmaq, onu idarə etmək, habelə insanı elmin zirvəsinə doğru çətin yollara çıxmağa vadar etmək kimi gücü yaxşı məlumdur. Ölməz mütəfəkkir şairimiz Hüseyn Cavid xalqların qəflət yuxusundan oyanıb, dünya arenasında öz yerini tuta bilməsi üçün bir vaxtlar “Turana qılıncdan daha kəskin ulu qüvvət, yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!..” yazırdı. Bu fikir ötən əsrin 90-cı illərindən bəri populyar olan Qərb politoloqu S.Hantinqton tərəfindən ortaya atılmış “Dünyada mədəniyyətlər mübarizəsi” tezisindən yarım əsr əvvəl söylənilmişdi. Doğrudan da, mədəniyyətə qovuşmaq üçün qılınc və tüfəngin artıq heç bir nəticə vermədiyini, bunun üçün insanların cəmiyyətin aydınlarının işığında mədəniyyət zirvəsinə ucalmağın tək yol olduğu artıq heç kimdə şübhə yaratmır.

Mədəniyyət çox geniş məfhumdur və o bir çoxlarının tək mədəniyyət sahəsi kimi bildiyi incəsənətdən tutmuş ictimai həyatın, demək olar ki, bütün sahələrini əhatə edir. Məktəbdə və universitetdə təhsil mədəniyyəti, tibb-sağlamlıq obyektlərində səhiyyə mədəniyyəti, restoranda yemək mədəniyyəti, sükan arxasında və səkidə yol mədəniyyəti, camaat arasında və evdə geyim və davranış mədəniyyəti, çıxış zamanı nitq mədəniyyəti, bilet alarkən növbəyə durmaq mədəniyyəti və sair. Bəri başdan deyim ki, dəyərli oxucularımızın öz düşüncələrinə görə bu fikirləri təqdir və ya təkzib edə biləcəyini bir düşüncə mədəniyyəti kimi qəbul edirik. Yəni bir gün şəhərdə hər gün rastlaşıb, hal-əhval tutduğumuz dostlarımız əlavə edib desələr ki, mədəniyyət həm də qonaq qarşılamaq, alış-verişdə istehlak mədəniyyəti və yaxud avtobusda böyüklərə yer vermək mədəniyyətidir, heç etirazımız olmayacaq. Xülasə, insan elə bir varlıqdır ki, özünün maddi durumuna və mənəvi zənginliyinə görə ona hər cür mədəni libas yaraşır. Yetər ki, bu libası tikib ona zamanın tələbinə görə naxış vura biləsən. Yəni, yaxşı mənada, qonşudan dala qalmamaq üçün edilən müsbət nə varsa, hamısı hər bir insanın özünə, ailəsinə və yaşadığı cəmiyyətin mədəni inkişafına verdiyi töhfədir. Bütün bunların bir mədəniyyətlərarası dialoq körpüsü olan turizm vasitəsilə dünya ilə paylaşılması isə “mədəniyyət və turizm” formulunun bir-birini nə qədər tamamladığını bir daha sübut edir.

### *Turizm və mədəniyyət*

Bəzən oturub fikirləşəndə bəzi sadə sualların cavabı saatlarca vaxt aparır. Əslində, bunları sadə adlandırmamaq da mümkündür. Azərbaycan mədəniyyəti bütün dünyanı fəth etdiyi, xalqımız öz tolerantlığına görə aləmə nümunə olduğu halda, nəyə görə bəzi üzdəniraqlar bunun əksini iddia etməklə ölkəmizə səyahət etməyi riskli sayırlar. Doğrudur, ola bilsin ki, bədnam qonşu Ermənistanın təcavüzkar hərəkətləri bütün Cənubi Qafqaz regionu üçün bir mənfi imic formalaşdırıb. Ancaq dünyada sağlam düşüncəli, mədəniyyət hərisi olan milyonlarla səyahətçi insan vardır ki, onlar hansı təhlükə olsa da, həmin yerə baş çəkməyə, bu mədəniyyəti yaradan insanlarla canlı ünsiyyətdə olmağa çoxdan qərar vermişlər. Belə turistlərin gözlədiyi təəssürat isə onların əhatəsindəki bütün insanlar üçün çox dəyərlidir. Axı mədəniyyət bölüşdükcə daha da genişlənən bir məfhumdur. Buna görə də müasir mədəniyyətimizi dünya ilə paylaşmaq üçün gəlmə turizmin bütün növlərindən istifadə olunması üçün hər il, hər turizm mövsümü yeni yaradıcı yollar axtarılması, ölkəmizin, muxtar respublikamızın turizm ehtiyatlarının, mövcud turizm potensialımızın hərəkətə gətirilməsi tələb olunur. Çünki hər gələn qonağın, hər xarici turistin öz ölkəsinə apardığı təəssürat indi bizə daha çox lazımdır.

Qədim Naxçıvan özünün 5 minillik şəhərsalma tarixi ilə mühüm mədəniyyətlər qovşağında yerləşir. “Şərq-Qərb dialoqu” mövzusunda keçmişdən indiyə qədər aparılan çox sayda tarixi araşdırmalarda “Naxçıvan” kəlməsinin keçmədiyi əsər tapmaq, demək olar ki, qeyri-mümkündür. Bu torpaq həmişə səyyahların, fatehlərin diqqət mərkəzində olub. İnsan çox zaman düşünür ki, tarixə iz salmış böyük bir sivilizasiyanın mədəniyyəti bəzən kiçik bir qalanın sirlərində gizli saxlandığı kimi, bu regionun tarixi də elə Naxçıvanın tarixində yazılıb. Naxçıvan torpağı xalqımızın qəhrəmanlığı ilə yazılmış çətin, keşməkeşli tarixə sahibdir. İndi dünyanın ən təmiz, sakit və tərəqqi edən bir diyarı olsa da, yüzillər boyu Naxçıvan savaşan orduların döyüş meydanı olmuşdur. Müasir dövrdə isə texnoloji inkişaf dövrünü yaşayan Qərbin insan mənəviyyatı, onun sağlam gələcəyi sarıdan düşdüyü böhran dövründə blokadada yaşayan bir muxtar respublikada insana verilən dəyər mövzusu ən yeni tariximizin ən maraqlı fəslidir. Bu gün muxtar respublikamıza səyahət edən sanballı turistlər öz vətənlərinə geri qayıdanda nə qədər iş-gücləri olsa da, Naxçıvan təəssüratlarını dünya ilə paylaşmaq üçün vaxt tapırlar. Qəzet və internet səhifələrində belə təəssüratları oxuduqca milli mədəniyyətimizin bütün saflığı ilə Naxçıvanda qorunub saxlandığının qürurunu yaşayırıq. Belə bir şəffaf payız günündə Naxçıvana gəlmiş qonaqların sirli bir daş kitabənin önündə dayanıb dəqiqələrcə tamaşa edirmiş kimi elə hava limanındaca ətrafın seyrinə donub qaldığına azmı şahid olmuşuq? Qonağımızın bundan sonrakı təəssüratlarını daha da dolğunlaşdırmaq üçün bu andan sonra qarşımızda nə qədər desən imkan var. Əgər turizmçi kimi işimizdə peşəkarıqsa, onda qonaqları tələm-tələsik kababxanaya aparmamalı, onları bu diyarda tarixlə müasirliyin qovuşduğu, gəncliyin coşub daşdığı, torpağın barından ağacların baş əydiyi... məkanlarla tanış etməliyik. Çindən Bağdada qədər Asiyanın yarısını fəth etmiş Teymurun fəth edə bilmədiyi sirli qalanın ətrafındakı insan əli möcüzələri bu gün peşəkar təqdimatını gözləyir. Qoy turistlərimiz bilsinlər ki, qədim dünyanın sirlərini özündə saxlayan Naxçıvanda bu gün də tarix yazılır. Bu salnamənin canlı şahidi olub keçmişə diqqət və gələcəyə qayğı, rəhbərə sədaqət və qanunlara hörmət, təbiətə sevgi və insana məhəbbət kimi ülvi hislərlə zənginləşmək üçün ilin istənilən fəslində Naxçıvana səfər etməyə dəyər. Bu qonaqpərvər torpaqda qapımız hamının üzünə açıqdır.

✍ **Əli CABBAROV**

---

*Ordubad şəhəri haqqında indiyədək çox deyilib, çox yazılıb. Zəngəzur dağlarının ətəyində yerləşən bu qədim yurd təkcə Qafqazın deyil, bütövlükdə Şərqin və Avrasiyanın köksündə özünə əbədi yuva qurmuş müasir Azərbaycan şəhəridir.*

# Tarixlə müasirliyin qovuşduğu məkan — Ordubad



Ordubad elə bir şəhərdir ki, əsrlərboyu bura yolu düşən səyyahların, coğrafiyaşünasların marağına səbəb olub, haqqında xatirələr yazılıb, şəninə təriflər deyilib. Mənə görə indiyədək Ordubad haqqında yazılmış hər bir xoş kəlmə, sadəcə, tərif deyil, bu yerin xüsusiyyətlərini özündə birləşdirən real təsvirdir. Məsələn, ötən əsrin məşhur səyyahı Hacı Zeynalabdin Şirvani “Bustanüs-səyahə” kitabında yazır: *“Ordubad ürəkaçan gözəl bir şəhərdir. Ora adama fərəh verən yerdir. Onun möhkəm qalası, bol suyu və çoxlu bağları vardır. Meyvəsi bol və dadlıdır. Havası insana sağlıq verir. Adamları surətcə gözəldir”*. Və yaxud XX əsrin əvvəllərində buranı ziyarət etmiş Nefodov adlı səyyah yazıb: *“Ordubad öz daş-qaşı ilə parıldayan qənirsiz gözələ bənzəyir. Ordubad çinarları təbiət tamaşası, el yaraşığıdır. Bu yurdun çinarları da torpağı kimi qədimdir”*. XIX əsrdə polyak tədqiqatçısı A.Petzold, fransız yazıçısı A.Düma, XVII əsrdə türk səyyahı Övliya Çələbi və başqaları öz yazılarında bu gözəlliyi vəsf edib, Ordubad çinarlarının möhtəşəm vüqarına heyran qaldıqlarını bildiriblər. Ordubad həm də elə bir unikal yerdir ki, haqqında bəhs edərkən onun tarixi keçmişinə toxunmaya bilmirsən. Çünki bu keçmişə, özünəməxsusluğa sadiqlik Ordubadın müasir vizit kartının əsasını təşkil edir. Buna görə də müasir Ordubad şəhərinin inkişafına keçmişin səhifələrini vərəqləməklə nəzər salaq.

Arxeoloqlar qazıntılar zamanı əldə olunmuş abidələri tədqiq edərkən Ordubadın tarixinin 7 min il əvvələ gedib çıxdığını öyrəniblər. Müxtəlif dövrlərdə burada aparılmış araşdırmalar şəhərin zəngin mədəniyyətə malik olduğunu üzə çıxarıb. Ordubadı dünyaya tanıtdıran isə məşhur ipəyi və dadlı meyvələri olub. Mənbələrdə göstərilir ki, Ordubad ipəyi hələ XVI əsrin ikinci yarısından etibarən avropalıların məişətində əvəzedilməz parça kimi tanınıb. Hələ 1875-ci ildə şəhərdə buxar mühərriki ilə işləyən ipəksarıma fabriki olub. 1886-cı ildə ipək istehsal edən 4 iri ipəksarıma müəssisəsi fəaliyyət göstərib. XIX əsrin ikinci yarısı, 1920-ci illərin əvvəllərində Rusiya bazarlarını da yüksəkkeyfiyyətli xam ipək, ipək parça, habelə quru meyvə ilə təchiz edən Ordubad şəhəri mühüm ticarət mərkəzlərindən olub. Burada istehsal edilən keyfiyyətli ipək beynəlxalq festivallarda mükafatlara layiq görülüb. Ordubadda yetişən meyvələrin dadı isə tam ayrı bir aləmdir. Ordubad əriyi, şaftalısı, limonu Azərbaycan brendi kimi məşhurlaşıb. Ordubad şaftalısı 1861-ci ildə ABŞ-da təşkil edilmiş meyvəçilik sərgisində, eləcə də Almaniya və İtaliya kimi Avropa ölkələrində öz layiqli yerini alıb. Əbutalibi əriyi isə 1898-ci ildə Kaliforniyada təşkil olunmuş ümumdünya meyvəçilik sərgisində birinci yerə layiq görülüb. Bundan əlavə, Ordubad meyvələri sovet dövründə Moskvada keçirilən ümumittifaq kənd təsərrüfatı sərgilərində yüksək dəyərləndirilib. Ordubadın kiçik yaşayış məntəqəsindən şəhərə çevrilməsində də meyvəçiliyin və ipəkçiliyin inkişafı mühüm rol oynayıb. Buradan Rusiyaya, Avropaya daim ipək və quru meyvə aparılıb. Şəhərin mərkəzində yerləşən Buzxana binası Ordubadın orta əsrlərdən üzü bəri əsas meyvəçilik mərkəzlərindən biri olduğunu bir daha sübut edir. Eyni zamanda Ordubad şəhəri həm də sənətkarlığın inkişaf etdirildiyi şəhərlərdən olub. Tarix boyu burada müxtəlif sənət sahələri formalaşıb, əmtəə istehsalı genişlənib. Bu da şəhərin həm də mühüm sənətkarlıq mərkəzinə çevrilməsinə imkan verib. Burada Şərq memarlığına məxsus mühəndislik elementlərindən istifadə edilməklə müxtəliftəyinatlı tarixi tikililər, çoxsaylı çeşmələri ilə əhalinin su təminatını ödəyən yeraltı su xətləri, hər məhəlləyə aid məscid və meydanlar vardır.

Müstəqilliyimizin bərpasından sonrakı dövrdə isə bu qədim Azərbaycan şəhərində müasir dövrün tarixini özündə əks etdirən obyektlər yaradılıb. Son 20 ildə şəhərdə onlarla yeni obyekt inşa edilərək istifadəyə verilib, yollar, körpülər salınıb, enerji, rabitə, su infrastrukturu yeniləşdirilib. Rayon İcra Hakimiyyətinin binası müasir standartlara cavab verə biləcək şəkildə təmir edilib, Qaz İstismarı İdarəsi, Vergilər Şöbəsi, Mədəniyyət Evi üçün yeni binalar inşa edilib. Ordubad şəhərində aparılan quruculuq tədbirləri bunlarla məhdudlaşmayıb. Şəhərdə rayon Elektrik Şəbəkəsi, Əhalinin Sosial Müdafiəsi Mərkəzi, Dövlət Sosial Müdafiə Fondunun Ordubad Rayon Şöbəsi, 7 saylı Dairə Seçki Komissiyası, Ordubad Şəhər Uşaq musiqi məktəbi üçün binalar inşa edilib. Nəqliyyat infrastrukturunun yeniləşdirilməsi istiqamətində konkret addımlar atılıb, şəhərdə müasir tələblərə cavab verən avtovağzal kompleksi əhalinin istifadəsinə verilib. Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının, rayon Polis Şöbəsinin, prokurorluğun, rayon məhkəməsinin, Kompüter Təlim-Tədris Mərkəzinin, Yusif Məmmədəliyevin ev-muzeyinin, Məmməd Səid Ordubadinin ev-muzeyinin, uşaq bağçasının, şahmat məktəbinin yeni inşa edilmiş və ya müasir tərzdə yenidən qurulmuş binaları da son illərin quruculuq ərməğanlarındandır. Rayon Mərkəzi Xəstəxanasının binası isə öz görünüşünə və avadanlıq təminatına görə Naxçıvan şəhərindəki səhiyyə müəssisələrindən fərqlənmir. Şəhər ərazisindəki bərpaya ehtiyacı olan tarixi abidələr də həyata keçirilən tədbirlərdən nəsibini alıb. Belə ki, Ordubad şəhərində indi Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyət göstərdiyi Qeysəriyyə binası, qədim məbəd, iki yeraltı abidə, bir neçə tarixi kəhriz bərpa edilərək əvvəlki görünüşünə qaytarılıb. 2015-ci ildə də şəhərdə az iş görülməyib. Bu il martın 29-da müasir tələblərə cavab verən Ordubad şəhər 3 nömrəli tam orta məktəbin binası müəllim və şagirdlərin istifadəsinə verilib. Avqustun 25-də isə görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin doğulub boya-başa çatdığı şəhərdə ev-muzeyinin açılışı olub. Elə həmin gün Ordubad şəhərində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Ordubad Rayon Avtomobillərin Müayinə Mərkəzi də istifadəyə verilib. Mərkəzdə yaradılmış müasir şərait avtomobillərin texniki sazlığını nəzarətdə saxlamaq üçün geniş imkanlar açır.

Ordubad şəhərində quruculuq işləri bu gün də davam etdirilir. Hazırda şəhərdə Texniki-Peşə və Sürücülük Məktəbi üçün binada yenidənqurma işləri aparılır. Bu təhsil ocağında xalçaçılıq, dərzi, çilingər, traktorçu-maşinist, bərbər və sair peşələr üzrə kadrlar hazırlanacaq. Ordubad şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəlikdən öyrənirik ki, M.F.Axundov küçəsində 3 mərtəbəli 36 mənzilli binada əsaslı təmir işləri aparılıb, Dədə Qorqud, Sərşəhər, Mənsur ağa küçələrində 2 kilometr məsafəyə yeni asfalt salınıb. “Dübəndi” Ailəvi İstirahət Mərkəzinin ətrafında genişhəcmli abadlıq işləri görülüb. Yaşıllıq tədbirləri çərçivəsində isə şəhər ərazisində 2,4 hektar sahədə ağac əkini həyata keçirilib.

*Bəli, bu gün 10500-dən çox sakinin yaşadığı qədim Ordubad şəhərinin hər addımlığında tarixlə bərabər, müasirlik də nəfəs alır. Keçmişinə sadiq bu müasir şəhəri digərlərindən fərqləndirən həm də odur ki, ümummilli liderimiz Heydər Əliyev Ordubadı Azərbaycanın incisi adlandırıb.*

✍ **Səbuhi HƏSƏNOV**



# Oxucu məktubları



*Razılıq*

## Artıq bizim kəndimiz də müasir yaşayış məntəqələrinin sırasına qoşulub



*Hörmətli redaksiya!*

Sizə bu məktubu Babək rayonunun Xal-xal kəndindən böyük minnətdarlıq hissi ilə yazıram. Ötən ay kəndin tarixində əlamətdar bir hadisə baş verib. Kənddə tam orta məktəb üçün yeni bina inşa olunub, bu məktəb ən müasir avadanlıqlarla təchiz edilib, yaşayış məntəqəsində kənd mərkəzi, xidmət mərkəzi istifadəyə verilib, tikinti işləri zamanı kəndin yollarına asfalt örtük salınıb.

Artıq bir neçə gündür ki, şagirdlərim yeni, hər cür avadanlıqlarla təchiz olunmuş məktəbə gəlirlər. Hər dəfə dərs dediyim sinfə girəndə onların üzlərindəki təbəssümü görür, şagirdlərimə belə bir rahat şəraitdə dərs dediyim üçün sevinc hissi keçirir, fərəh duyuram. Uzun illərdir, köhnə, yararsız məktəb binasında uşaqlara biliklərin sirlərini öyrədən müəllim yoldaşlarım da mənimlə bərabər yeni fənn laboratoriyaları, kabinələri, elektron lövhəli sinifləri, kompüter otaqları, kitabxanası olan məktəbdə çalışmağın haqlı qürurunu yaşayırlar. Bir məsələni də qeyd edim ki, bu yaşayış məntəqəsinin köhnə sosial obyektləri, bərbad kənddaxili yolları olan bir kənddən müasir qəsəbə görkəmli yurd yerinə çevrilməsi hər bir kənd sakini tərəfindən minnətdarlıqla qarşılanır. Artıq bizim kəndimiz də müasir yaşayış məntəqələrinin sırasına qoşulub. Bütün bu görülən işlər dövlətimizin insan amilinə verdiyi önəmin, kənd sakinlərinin rahat yaşayışına göstərdiyi diqqətin bariz nümunəsidir. Qəzetiniz vasitəsilə bütün kənd sakinləri, məktəbimizin kollektivi adından dövlətimizə, onun qurub-yaradan insanlarına minnətdarlığımı bildirir, əminliklə demək istəyirəm ki, bütün bu görülən işlərin müqabilində daha səylə və əzmlə çalışacaq, gələcəyimiz olan uşaqların yaxşı təhsil alması, hərtərəfli biliyə malik olmaları üçün əlimizdən gələni əsirgəməyəcəyik.

**Tərifə FƏRZƏLİYEVA**
***Xal-xal kənd tam orta məktəbinin müəllimi***

*Minnətdarlıq*

## "Naxçıvan" Universitetində yaradılan şərait mükəmməl ali təhsil almağa imkan verir

***Hörmətli redaksiya!***

***Təhsil aldığım "Naxçıvan" Universiteti əvvəllər o qədər də yaxşı şəraiti olmayan binada yerləşirdi. Bilik Günündə ali təhsil ocağı üçün yeni universitet şəhərciyi istifadəyə verildi. Burada o qədər yüksək səviyyədə tədris standartları tətbiq olunub ki, bu gün biz çəkinmədən deyə bilərik ki, universitetimiz Avropanın qabaqcıl universitetləri ilə rəqabətə girə biləcək səviyyədədir.***



Altımərtəbəli tədris korpusunda 34 auditoriya, hər birində 66 kompüter olan 2 imtahan mərkəzi, proyektor və elektron lövhə quraşdırılan 11 mühazirə zalı, Heydər Əliyev Dövlətçilik Mərkəzi, Coğrafiya, Azərbaycan tarixi, Turizm-informasiya kabinələri, elektron kitabxana tələbələrin istifadəsinə verilib. Təbii ki, yaradılanlar tələbələrin böyük sevincinə səbəb olub. Universitetdə Kompüter Səviyyə Ölçmə Mərkəzinin yaradılması da təqdirolunasıdır. Sevindiricidir ki, kursları uğurla bitirən tələbələrə dünyanın 150 ölkəsində tanınan sertifikatlar veriləcəkdir. Bundan başqa, 302 yerlik, 6 mərtəbəli yataqxana binasının istifadəyə verilməsi nəticəsində tələbələrin sosial-məişət şəraiti yaxşılaşdırılıb, zəruri mebel avadanlıqları ilə təchiz olunan otaqlar internetlə təmin olunub. Həmçinin məişət otağı, camaşırxana, mətbəx və istirahət otaqları da tələbələrin istifadəsinə verilib.

Şübhəsiz ki, həyata keçirilən bu tədbirlər, yaradılanlar, hər şeydən əvvəl, biz gənclərin savadlı, bilikli, intellektli, müasir dünyagörüşə malik vətəndaşlar kimi yetişməyimizə imkan yaradır. Ümummilli lider Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanın gələcəyi olan biz gənclər vətənpərvərliyimizlə, savadımızla müstəqilliyimizin möhkəmləndirilməsi, ixtisaslı kadr kimi ölkəmizin, eləcə də muxtar respublikamızın daha da çiçəklənməsi, vətənimizin xoş gələcəyi naminə çalışmalıyıq.

**Jalə MİRZƏYEVA**
***tarix ixtisası üzrə ikinci kurs tələbəsi***

## Kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının təşkili hamımızı sevindirir

*Salam, hörmətli redaksiya!*

Muxtar respublikamızın hərtərəfli inkişafı hamı kimi məni də çox sevindirir. Naxçıvanda digər sahələrlə yanaşı, kənd təsərrüfatının inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Yaxşı yadımızdadır, ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikada digər sahələr kimi, aqrar sahə də özünün tənəzzül dövrünü yaşayırdı. Kənd təsərrüfatı texnikalarının olmaması, su problemi kəndlinin əlini torpaqdan soyutmuşdu. Əksər ərzaq məhsullarına olan tələbatımız idxal hesabına ödənilirdi. Ancaq son 20 il ərzində dövlətimiz tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində kənd təsərrüfatının inkişaf etdirilməsi üçün mühüm addımlar atıldı. İndi qədim diyarımızda əkinçinin də, heyvandarlıqla məşğul olan mülkiyyətçinin də üzü gülür. Bu sahənin inkişaf etdirilməsinə göstərilən qayğının, çəkilən zəhmətin nəticəsidir ki, bazarlarımızda bolluqdur. Paytaxt Naxçıvan şəhərində, eləcə də rayon mərkəzlərində hər həftənin şənbə və bazar günləri təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkaları indi sakinlərin bazarlıq üçün üz tutduğu əsas ünvanlardır. Mən özüm hər həftə Naxçıvan şəhərində təşkil edilən kənd təsərrüfatı yarmarkasından ailəmiz üçün həftəlik ərzaq tədarükü görürəm. Yarmarkadakı bolluğu həmin günlər buradakı izdihamdan da görmək mümkündür. Buradan muxtar respublikamızın bütün bölgələrində yetişdirilən meyvə, tərəvəz, müxtəlif heyvandarlıq məhsulları almaq olar. Qiymətlər də adi günlərdən fərqli olaraq 20-25 faiz aşağıdır. Bu il həm də məhsulun bol ilidir. Ona görə də istədiyimiz yerli məhsulu yarmarkadan tapıb ala bilirik. Dövlətimizə də minnətdarıq ki, belə yarmarkaları təşkil etməklə, məhsulların keyfiyyətinə nəzarət etməklə vətəndaşlarımızın sağlamlığının qayğısına qalır. Qəzetiniz vasitəsilə kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının təşkilində əməyi olan hər kəsə minnətdarlığımı bildirirəm.

**Siyavuş NƏCƏFOV**
***Naxçıvan şəhər sakini***

## Səyyar xidmətlər əhalinin rahatlığını təmin edir

***Hörmətli redaksiya! Sizə bu məktubu Ordubad rayonunun Biləv kəndindən yazıram. Əvvəla qeyd etməliyəm ki, kəndimizdə insanların rahat yaşayışı üçün hər cür şərait yaradılıb. Kəndə müasir səviyyədə yeni yol çəkilib, elektrik enerjisi, mavi yanacaqla fasiləsiz təmin olunuruq, bizə keyfiyyətli rabitə xidməti göstərilir.***

Bildirmək istərdim ki, ötən illərdə kənd sakinlərinin ən böyük çətinliyi dövlət qurumlarından müxtəlif sənədlər, arayışlar almaq üçün Naxçıvan şəhərinə gəlmələri olub. Ancaq bir müddət öncə dövlət qurumlarının yerlərdə, eləcə də bizim kənddə əhaliyə səyyar xidmətlər göstərməsi kənd sakinlərinin mövcud çətinliklərini aradan qaldırıb. Elə sentyabr ayının əvvəllərində Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən kəndimizdə səyyar qaydada daşınmaz əmlaka mülkiyyət hüquqlarının dövlət qeydiyyatı və digər xidmətlər göstərildi. Səyyar xidmət zamanı sakinlərin ərizələri sıra ilə qəbul olundu və məlumat bazası üzrə uyğunluğu yoxlanıldı. Burada bizə dedilər ki, qəbul edilmiş sənədlər rayon şöbəsi tərəfindən elektron sistemə salınaraq təsdiq üçün mərkəzi aparata göndəriləcək, daşınmaz əmlak dövlət reyestrində qeydiyyata alınaraq çıxarış hazırlanacaq, kağız və elektron variantlarda arxiv yaradılacaq. Bütün proseslər tamamlandıqdan sonra hazırlanan sənədlər kənd sakinlərinə çatdırılacaq. Sakinlər göstərilən xidmətə görə rüsumu POS-terminal vasitəsilə ödəyirdi. Çox keçmədi ki, onlar lazım olan sənədləri aldılar. Hər şey çox rahat və asan oldu.

Qeyd edim ki, bundan bir müddət əvvəl Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin səyyar xidmət avtomobili kəndimizdə olmuş, əhaliyə səyyar xidmətlər göstərmişdi. Səyyar xidmət tərəfindən bizim kəndin sakinlərinə 5 hüquqi xidmət – ümumvətəndaş pasportunun və şəxsiyyət vəsiqəsinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, eləcə də ov silahlarının qeydiyyata alınması üzrə xidmətlər göstərildi. Səyyar xidmətə şəxsiyyət vəsiqəsi almaq üçün müraciət edənlər lazım olan sənədləri qısa vaxt ərzində elə yaxınlıqdakı kənd mərkəzində fəaliyyət göstərən inzibati ərazi dairəsi üzrə nümayəndəlikdən əldə etdilər. Şəxsiyyət vəsiqəsi üçün lazım olan fotoşəkillər də kənd mərkəzində təşkil edilən studiyada çəkildi. Daxili İşlər Nazirliyinin əməkdaşları sənədlərin toplanmasına və işlənməsinə həssaslıqla yanaşırdı. Bildirdilər ki, qısa müddətdə şəxsiyyət vəsiqəsini rayon mərkəzinə getmədən öz kəndimizdə ala biləcəyik. Elə də oldu, səyyar xidmətə müraciət edənlər tez bir zamanda öz şəxsiyyət vəsiqələrini aldılar. Kənd sakinlərinə belə şərait yaradan, onların rahatlığını təmin edən dövlətimizə minnətdarıq.

**Məhəmmədəli ƏLƏSGƏROV**
***Biləv kənd sakini***

## Pedaqoji təcrübənin başlanğıc konfransı

***Naxçıvan Dövlət Universitetində 2015-2016-cı tədris ilinin birinci semestrinə aid pedaqoji təcrübənin başlanğıc konfransı keçirilib.***

Konfransı universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq vurğulayıb ki, pedaqoji təcrübə tələbələrin ali təhsil zamanı aldıqları nəzəri bilikləri sınaqdan çıxarmaları, pedaqoji mühitə alışmaları, müəllimlik sənətinin sirlərinə daha dərindən yiyələnmələri, ümumtəhsil məktəbləri ilə əməkdaşlığın möhkəmləndirilməsi, yüksək intellektli müəllim hazırlanması baxımından mühüm əhəmiyyət kəsb edir.

Tədris şöbəsinin müdiri, dosent Rafiq Rəhimov bildirib ki, universitetin 6 fakültəsinin pedaqoji profili 16 ixtisası üzrə 365 nəfər III-IV kurs tələbəsi muxtar respublikanın 17 tam orta məktəbində, o cümlədən Babək rayonunun Şıxmahmud və Kərimbəyli kəndlərindəki tam orta məktəblərdə təcrübədə olacaq. Rafiq Rəhimov sənədləşmə işləri – təcrübə jurnallarının, məktəb rəhbərlərinin və təcrübəçilərin iş planlarının, icmal və gündəliklərin, hesabatların hazırlanması, qiymətləndirmə sistemi, açıq dərslərin, kütləvi tədbirlərin təşkili barədə məlumat verib, təcrübəçi tələbələrin, metodistlərin, məktəb müdiriyyətinin üzərinə düşən vəzifələrdən danışıb.

Konfransda Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi kafedrasının baş müəllimi Rövşən Bağırov "Metodistlərin təcrübə dövründə yerinə yetirəcəyi işlər", Pedaqogika və psixologiya kafedrasının əməkdaşı, psixologiya üzrə fəlsəfə doktoru Sevinc Orucova "Təcrübə dövründə pedaqogika və psixologiya üzrə görüləcək işlər" barədə məruzələr ediblər.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin aparat rəhbəri Rəşad Xudiyev konfransa yekun vuraraq bildirib ki, muxtar respublikada təhsilin inkişafına göstərilən dövlət qayğısı öz bəhrəsini verməkdədir. Bunu son onilliyin statistik göstəriciləri də təsdiq edir. Belə ki, muxtar respublikanın ümumtəhsil məktəblərinin məzunlarından ali məktəblərə yüksək balla qəbul olanların sayı 2004-2005-ci tədris ilində 87 nəfər idisə, 2014-2015-ci tədris ilində bu rəqəm 313-ə çatıb. Fərəhləndirici haldır ki, onlardan 144 nəfəri ali təhsil almaq üçün məhz Naxçıvan Dövlət Universitetini seçib. Bu il yüksək bal toplayaraq Azərbaycan Respublikası Prezidentinin təqaüdünə layiq görülən 8 tələbədən 4-ü Naxçıvan Dövlət Universitetində təhsil alır.

Qeyd olunub ki, muxtar respublikanın tam orta məktəblərində təcrübəçi tələbələrin pedaqoji prosesi əyani şəkildə öyrənmələri, bilik və peşə vərdişlərini yaxşı mənimsəmələri üçün hər cür şərait yaradılıb.

Konfransda ötən tədris ilindəki pedaqoji təcrübələri əks etdirən slaydlar nümayiş olunub.

**Mehriban SULTAN**

*“Böyük Ermənistan” xülyası ilə yaşayan xəstə təfəkkürlü ermənilər bu fikirlərini regiondakı dövlətlərin torpaqları hesabına reallaşdırmağa çalışırlar. Vaxtilə havadarlarının köməyi ilə Qərbi Azərbaycan torpaqları üzərində erməni dövləti qurmağa nail olan bədnam qonşularımız digər ərazilərimizi də ələ keçirmək məqsədilə 1988-ci ildən bu tərəfə bütün vasitələrə əl atmışlar. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edildiyi ilk illərdə onun gücsüzlüyündən istifadə edən düşmən Dağlıq Qarabağı və ətrafdakı 7 rayonu işğal etmişdir. Bunlar arasında Xocavənd rayonu da var.*

# Biz o yurda qayıdacağıq



Ermənistan işğal siyasətini insanlığa sığmayan bir şəkildə həyata keçirmişdir. 1992-ci ilin fevral ayında Xocalı şəhərində ermənilər tərəfindən azərbaycanlılara qarşı misli görünməmiş soyqırımı törədilmişdir. Dünya ermənilərinin, muzdluların, keçmiş sovet ordusunun, xüsusilə Xankəndidə yerləşən 366-cı alayın birbaşa və ya bilavasitə köməyi ilə şəhərlərimiz, kəndlərimiz işğal olunur, yandırılaraq talan edilirdi. Dağlıq Qarabağın digər yaşayış məntəqələri kimi, Xocavənd rayonu da ermənilərin hücumuna məruz qalmışdır. Erməni qəsbkarları və muzdlu döyüşçülərlə gedən qeyri-bərabər döyüşlərdə rayonun kəndləri qarış-qarış, addım-addım itirilmişdir. 30 oktyabr 1991-ci ildə rayonun qədim Tuğ və Salakətin kəndləri, 1991-ci ilin 15 noyabrında Xətai, 19 noyabr 1991-ci il tarixdə Xocavənd, 1992-ci il yanvar ayının 9-da Haxullu kəndləri işğal edilmişdir.

1992-ci il fevralın 17-də ermənilər Xocavənd rayonunun Qaradağlı kəndində misli görünməmiş vəhşiliklər törətmiş, kənd əhalisinin böyük bir qismini xüsusi amansızlıqla qətlə yetirmişlər. 1992-ci il oktyabr ayının 2-də Əmirallar, Muğanlı və Kuropatkino, 1993-cü il iyulun 23-də isə Günəşli kəndləri Ermənistan silahlı qüvvələri və onların havadarları tərəfindən işğal edilərək yandırılmışdır.

Xatırladaq ki, Xocavənd rayonu Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixli Qanununa əsasən yaradılmışdır. Rayonun ərazisi 1458 kvadratkilometrdir. Rayonun inzibati ərazisində bir şəhər, 2 qəsəbə və 81 kənd var idi. Xocavənd rayonu Ağdam, Ağcabədi, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın və Xocalı rayonları ilə həmsərhəddir. İqtisadiyyatında üzümçülük, heyvandarlıq, quşçuluq və bostançılıq üstünlük təşkil etmişdir. Füsunkar təbiəti ilə fərqlənən Ziyarət, Kirs və Ərgünəş yaylaqları Kiçik Qafqazın əsrarəngiz təbiət gözəlliklərini özündə əks etdirir. Xocavənd rayonu üzümü və yaşıl mərməri ilə məşhur olmuşdur. Rayon ərazisindəki Bağırxan, Qırmızı Bazar, Mədə bulağı, Baba bulağı kimi istirahət zonaları minbir dərdin dərmanı idi.

Bəşər sivilizasiyasının beşiklərindən biri olan Xocavənd bölgəsi antik, orta əsrlər və yeni dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə zəngindir. Bu bölgədə ilk insanların yaşadıqları mağaralara, qədim yaşayış yerlərinə, erkən şəhər mədəniyyəti qalıqlarına, möhtəşəm qala divarlarına, müxtəlif dövrlərdə inşa edilmiş türbələrə, daş qoç heykəllərə, ümumiyyətlə, nadir mədəniyyət nümunələrinə hər yerdə rast gəlinirdi.

Qeyd edək ki, Xocavənd ərazisində 72 dünya və respublika əhəmiyyətli tarixi-memarlıq və mədəniyyət abidələrimiz var. Bunlar Azərbaycan xalqının tarixini, mədəniyyətini, adət-ənənələrini əks etdirən abidələrdir. Erməni təcavüzü nəticəsində rayonun dağıntıya məruz qalmış mədəni və dini abidələrinə nümunə olaraq Tuğ kəndinin 5 kilometrliyindəki V əsrə aid alban kilsəsi, I-V əsrlərə aid alban qəbiristanlıqları, Salakətin kəndi ərazisindəki Dəmirov və Dağdağan ocaqları, Xocavənd kəndi ərazisində yerləşən Cicim ocağı, Qaradağlı kəndinin ərazisində qeydə alınan və III-VI əsrlərə aid olan alban qəbiristanlıqları, Əmirallar kəndi yaxınlığındakı Bəhrəmli piri, Muğanlı kəndində yerləşən Seyid Rza günbəzi, Qaradağlı kəndi ərazisindəki Yel piri və neçə-neçə qiymətli abidələri göstərmək olar.

1992-ci il oktyabr ayının 2-də Azərbaycanın bu tarixi məkanı Ermənistan silahlı birləşmələri və onların havadarları tərəfindən işğal edilmişdir. İşğal nəticəsində 1723 yaşayış evi yandırılaraq əmlakları talan edilmiş, 47 sənaye, 144 kənd təsərrüfatı obyekti dağıdılmışdır. Erməni vandalları tərəfindən 17 təhsil müəssisəsi, 4 məktəbəqədər tərbiyə ocağı, 32 səhiyyə müəssisəsi, 59 mədəniyyət obyekti, 10 tarixi abidə yerlə yeksan edilmişdir. Rayonun infrastrukturuna aid olan 12 rabitə qovşağı, 341 kilometr avtomobil yolları, 32 körpü və 316 kilometr su kəməri xətti dağıdılmış, talan edilərək yararsız hala salınmışdır. İşğal nəticəsində vurulmuş maddi, mənəvi ziyanla bərabər, rayonun bitki və meşə örtüyünə də böyük miqdarda zərər dəymişdir. Belə ki, rayonun 1202 hektar meşə sahəsindəki qiymətli ağac növləri qırılaraq məhv edilmişdir.

Xocavənd rayonunun işğalı ermənilər üçün o qədər də asan olmamışdır. Ermənilərə qarşı inadlı müqavimət göstərilmiş, bu torpaqların hər qarışı uğrunda qanlar tökülmüş, şəhidlər verilmişdir. Bu qeyri-bərabər döyüşlərdə rayonun cavanlı-qocalı bütün sakinləri qəhrəmanlıqla iştirak etmişlər. Xocavənd rayonunun təkcə Qaradağlı kəndi ermənilərlə qeyri-bərabər mübarizədə 4 ay tam mühasirə şəraitində qalmış, səkkiz yüz nəfər sakini olan kənddə 91 nəfər şəhid olmuşdur. Bu, kənd əhalisinin hər 10 nəfərindən biri deməkdir.

Ümummilli lider Heydər Əliyev 1994-cü il aprelin 10-da Xocavənd rayonu ərazisində cəbhə xəttinə səfəri zamanı Xocavənd taborunun döyüşçüləri ilə görüşmüş, igid Vətən oğullarına öz təşəkkürünü bildirmiş, bir neçə cəsur döyüşçünü isə yüksək mükafatlarla təltif etmişdir.

Bu görüşdən ruhlanan əsgərlərimizin böyük şücaət və qəhrəmanlıqları sayəsində Xocavənd rayonunun – Dağlıq Qarabağın 14 min hektar ərazisi düşməndən azad edilmişdir. Hazırda həmin ərazilər ordumuzun nəzarəti altındadır və rayon sakinləri orada gündəlik təsərrüfat işləri ilə məşğul olurlar.

Bu gün talelərinə məcburi köçkünlük həyatı yaşamaq qisməti düşən xocavəndlilər Azərbaycan dövlətinin böyük qayğı və diqqəti ilə əhatə olunublar. Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması dövlətimizin daim diqqət mərkəzindədir. Məcburi köçkün soydaşlarımızın rahat yaşamaları üçün bütün infrastruktura malik olan yeni qəsəbələr tikilmiş, insanlar hər cür rahatlığı olan evlərdə məskunlaşmışlar.

Bu gün xocavəndlilər inanırlar və əmindirlər ki, tezliklə xalqımız və dövlətimiz doğma yurdlarımızı, şəhidlərimizin uğrunda vuruşduqları müqəddəs torpaqlarımızı düşmən işğalından azad edəcək. O zaman işğal tarixlərini deyil, qələbəmizin ildönümlərini doğma Qarabağda qeyd edəcəyik. Çox qısa zamanda bu, reallığa çevriləcəkdir. Çünki ölkəmizin apardığı uğurlu xarici siyasət nəticəsində Ermənistan qlobal əhəmiyyətə malik bütün layihələrdən təcrid edilmiş, bu və digər səbəblərdən iqtisadiyyatı iflasa məruz qalmışdır. Ölkəmiz isə əksinə, daha da güclənmiş və Cənubi Qafqaz regionunun aparıcı dövlətinə çevrilmişdir. Biz bölgədə söz sahibiyik və bundan sonra mövqeyimiz daha da möhkəm olacaqdır.

Rəsmi İrəvan bu gün də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində qeyri-konstruktiv mövqe nümayiş etdirir. Əgər biz bu məsələyə tarixi cəhətdən yanaşsaq, heç kimdə şübhə olmaz ki, bu məsələ ədalətli həllini tapacaqdır və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Çünki beynəlxalq hüquq da daxil edilməklə bütün faktlar, meyarlar belə deməyə əsas verir ki, bu məsələnin başqa həlli yolu ola bilməz. Prezident İlham Əliyevin vurğuladığı kimi, heç vaxt Azərbaycan bu vəziyyətlə barışmayacaqdır. Heç vaxt Azərbaycan öz torpaqlarında ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir. Xocavənd və digər işğal edilmiş rayonlarımız erməni işğalçılarının tapdağından xilas ediləcək və biz yaxın vaxtlarda Azərbaycanın bu füsunkar diyarına geri qayıdacağıq. Bu barədə danışan Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev demişdir: ***“Biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Həm hazırda Dağlıq Qarabağın inzibati hüdudlarından kənarda işğal edilmiş torpaqlarda Azərbaycan dövlətinin suverenliyi bərpa edilməlidir və ediləcəkdir. Eyni zamanda Dağlıq Qarabağda Azərbaycan bayrağı dalğalanmalıdır və dalğalanacaqdır. Bizim artan siyasi gücümüz, hərbi potensialımız o müqəddəs günü yaxınlaşdırır”.*** O gün isə uzaqda deyil...

**Rauf ƏLİYEV**

## Dövlət proqramının icrası uğurla davam etdirilir



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən redaksiyamıza daxil olan məlumata görə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın icrası davam etdirilir.

Dövlət proqramına uyğun olaraq, sentyabrın 30-da komitə Naxçıvan Müəllimlər İnstitutu ilə birgə məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilinə məsul işçilərin peşakarlıq səviyyələrinin artırılması məqsədilə kurs təşkil edib.

Komitədə təşkil olunan növbəti tədbiri şöbə müdiri Rəşad Kərimov açıb.

Naxçıvan Müəllimlər İnstitutunun psixoloq-müəllimi Çapay Quliyev çıxış edərək bildirib ki, nitq qüsuru olan uşaqlar həmyaşıdları ilə ünsiyyətdə, uşaq bağçasında, məktəbdə müxtəlif problemlərlə üzləşir ki, bu da onların davranışına, xasiyyətinə mənfi təsir edir. Belə uşaqların bir hissəsi digər uşaqlarla ünsiyyətdən çəkinir, tək qalmağı xoşlayır, qapalı böyüyür. Məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilinə məsul işçilər bu məsələlərə xüsusi diqqət etməli, belə uşaqları daim nəzarətdə saxlamalı, onların cəmiyyətə inteqrasiyası üçün digər uşaqlarla daha çox ünsiyyət qurmalarını təmin etməlidirlər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb, onlara mövzu ilə bağlı elektron material paylanılıb.

## Yüngül atletika üzrə şəhər birinciliyi keçirilib

***Naxçıvan Muxtar Respublika Stadionunda “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında şəhər tam orta məktəblərinin oğlan və qız atletləri arasında yüngül atletika üzrə şəhər birinciliyi keçirilib.***

Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyası, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 16 tam orta məktəbin komandası iştirak edib, hər komandanın tərkibi isə 4 oğlan və 4 qızdan ibarət olub.

Yarışın açılış mərasimində Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Yüngül Atletika Federasiyasının sədr müavini İntiqam Rəhimov və Təhsil Şöbəsinin nümayəndəsi Ruslan Quliyev çıxış ediblər. Bildirilib ki, birinciliyin keçirilməsində məqsəd yeniyetmə və gəncləri zərərli vərdişlərdən uzaqlaşdırmaq, onları yüngül atletika idman növünə cəlb etməklə bu idman növünün inkişafına və kütləviliyinə nail olmaqdır.

Beynəlxalq Atletika Federasiyasının qaydalarına uyğun keçirilən yarışda oğlanlar arasında Nail Orucov, Kamil Mirzəyev, Ayxan Seyidov və Səfər Tağıyev müvafiq olaraq 100, 200, 400, 800 metr məsafəni hamıdan öndə qət ediblər. Qızların mübarizəsində isə Zəhra Şeval Yıldız, Səbinə Bədəlova, Gülay Hüseynova və Zülfiyyə Mehdiyeva müvafiq olaraq 100, 200, 300, 500 metr məsafədə birinci yerlərə layiq görülüblər.

Komanda hesabına gəlincə, 16 nömrəli tam orta məktəbin komandası şəhər birinciliyinin qalibi olub. Digər iki pillədə isə 3 və 6 nömrəli tam orta məktəblərin komandaları qərarlaşıblar.

Sonda yer tutan komanda və idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları və Yüngül Atletika Federasiyasının hədiyyələri ilə mükafatlandırılıblar.

**Xəbərlər şöbəsi**


## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi *işə qəbul elan edir*

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi mərkəzi aparat və struktur qurumlarında adları aşağıda qeyd olunan ixtisaslar üzrə yaşı 30-dək və bu işdə müəyyən təcrübəsi olan şəxsləri hərbi xidmətə və dövlət qulluğuna dəvət edir:

*1. Tikinti sahəsi üzrə ali tədris müəssisələrini bitirmiş və ən azı 3 il iş təcrübəsinə malik mütəxəssislər*

*2. Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi, ətraf mühitin və insanların radiasiya təhlükəsizliyi üzrə mütəxəssislər*

*3. Dağ-mədən və geologiya ixtisası üzrə mütəxəssislər*

*4. Hüquqşünas*

*5. Mühasib*

*6. Həkim və feldşer*

*7. Rabitə və informasiya texnologiyaları ixtisası üzrə mütəxəssislər*

*8. Sularda xilasetmə işlərini bilən və bu sahədə müəyyən təcrübə keçmiş şəxslər.*

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, cinayət törətdiklərinə görə əvvəllər məhkum edilmiş və tibbi rəyə əsasən fiziki və əqli qüsurları olan, Azərbaycan Respublikası Silahlı Qüvvələrindən xidməti uyğunsuzluğa, hərbi qulluqçunun şərəfini ləkələyən nalayiq hərəkətlər törətdiyinə və törətdikləri cinayətə görə həqiqi hərbi xidmətdən ehtiyata buraxılan şəxslər işə qəbul olunmurlar.

Sənədlər Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin inzibati binasında (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi) 1 oktyabr 2015-ci il tarixdən 30 oktyabr 2015-ci il tarixədək hər gün (bazar günləri istisna olmaqla) saat 10[00]-dan 18[00]-dək qəbul olunacaqdır.

## Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Ordubad rayonunun Tivi icmasının tender komissiyası icma qrupunun hazırladığı “Yolun təmiri” adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

* *Maraq məktubu*
* *Nizamnamə*
* *Maddi-texniki baza və insan resursları barədə məlumat*
* *Son illərdə infrastrukturtipli layihələrdə iş təcrübəsinin olması*
* *Maliyyə vəziyyəti barədə arayış.*

Qeyd olunmuş sənədlər toplusunu 10 oktyabr 2015-ci il, saat 18[00]-ə kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Ordubad rayonu, Tivi kəndi tender komissiyası, icma qrupunun sədri: Rza Adıgözəlov***
***Əlaqə telefonu: (050) 375-64-19***



**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 738